# Ortaq əlifbadan ortaq universitetə

**III məqalə**

*Elm və təhsil daim inkişafda olmalıdır.*

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

## Ortaq ali təhsil

Belə qənaətə gəlinir ki, ortaq əlifba əsasında Ortaq Türk Universitetinin yaradılması özlüyündə uzun sürən və çox sayda faktorların nəzərə alınmasını tələb edən prosesdir. Gənclərin vahid mədəni, mənəvi, əxlaqi və vətənpərvər məcraya yönləndirilmələrinin fəlsəfi təhlili ayrıca bir vəzifədir. Bunun fonunda gənclərin ortaq "türk dövləti vətəndaşlığı" təsəvvürünə malik olmaları sosial, siyasi, mənəvi-əxlaqi və ideoloji ilə yanaşı, hüquqi "ölçüsü" olan prosesdir. Nəzəri təsəvvürü mümkün olan bu məsələnin praktiki reallaşması sadə deyildir.

Gənclərin yüzillərdir formalaşmış ideoloji stereotiplərdən əsaslı surətdə azad olmaları üçün davamlı işlər görmək lazımdır. Ancaq bu, prosesin illərlə uzadılması anlamına gəlmir. Zaman baxımından çox qısa müddətdə onu həyata keçirmək olar. Məncə, hər şey bu istiqamətdə fəaliyyətin məntiqi, həcmi və qarşıya qoyulan məqsədlə bağlıdır.

Öncə, təbii ki, ibtidai və orta təhsildə ortaq əlifbanın öyrədilməsi gərəkdir. Texniki olaraq burada çətin məqam yoxdur. Xüsusilə, azərbaycanlı məktəblilər üçün 32 hərf "özünündür", cəmi iki hərfə uşaqların alışdırılması heç bir çətinlik olmadan tədricən aşılana bilər. Lakin məsələyə hər bir türk dövləti kontekstində yanaşanda meydana bir sıra suallara cavab vermək ehtiyacı çıxa bilər. Məsələn, Mərkəzi Asiya türk dövlətləri üçün uşaqlara "niyə 32 Azərbaycan əlifbasındakı hərflər" sualına cavab aktual ola bilər.

Bununla yanaşı, tədrisdə yeni əlifbadakı hərflər vasitəsi ilə artıq mövcud olan sözlərin düzgün yazılışı məsələsi aktuallaşa bilər. Sözlərdən cümlələrin, cümlələrdən mətnlərin yaradılması lazım gəlir. Bir sıra araşdırmaçı hesab edir ki, yeni əlifba yeni bədii dil formalaşdırmaya bilər. Bundan fərqli mövqe də istisna deyildir.

Ancaq aydındır ki, yeni əlifbanın uğurla tədrisə daxil edilməsi ciddi və ehtiyatlı yanaşma tələb edir. Onu da nəzərə alaq ki, indidən bir sıra xarici siyasətçilər türk xalqlarına "ağıl öyrətməyə" cəhdlər edirlər. Onlar həm prosesin uzun sürən olacağını, həm də "titul millətlər"in həmin gedişata necə reaksiya verəcəyini qabardırlar. Bunların fonunda "titul millət" ifadəsini təhrif edən media resursları da özünü göstərməyə başlayıblar. Bunların təhlili göstərir ki, kimlərisə, ilk növbədə "ortaq türklük" ifadəsinin mənası narahat edir. Və hər bəhanə ilə məhz bu ifadəni arxa plana atmağa meyil göstərirlər. Məsələdən çıxış edərək "titul millət" ifadəsi ya inkar olunur, ya da toplumun ümumi etnik mənsubluğunun yayğın ifadəsi olaraq təqdim olunmağa çalışılır.

Əslində isə müasir elmdə "titul millət" anlayışının izahı sadədir. Titul millət konkret ölkədə dövlətyaradan millətdir. Əgər söhbət türk dövlətlərinin cəmiyyətlərindən gedirsə, addan bəllidir ki, onların hər birində dövlətyaradıcı toplu türkdür. Cəmiyyətdə mövcud olan digər millətlərlə vəhdətdə türklər müasir mərhələdə ortaq kollektiv birgəyaşam üsulunu formalaşdırmışlar. Təcrübə göstərir ki, hər bir türk ölkəsində vətəndaşlar arasında dövlət tərəfindən həm fərdi, həm də kollektiv formada heç bir ayrı-seçkilik yoxdur. Nümunə Azərbaycandır.

Azərbaycan qədimdən bir neçə xalqın birgəyaşam məkanıdır. Burada multikulturallıq kənardan gətirilməmişdir, toplumun tarixi təkamülündə daxili şərtlərdən formalaşmış və insanların həyat tərzində, düşüncəsində oturuşmuşdur. Həmin prosesdə aparıcı və formalaşdırıcı rolu türk etnosu oynamışdır. Buna görə də ümumi səviyyədə "azərbaycanlılar" deyəndə türklər nəzərdə tutula bilər. Zira azərbaycançılıqda "azərbaycanlı" bizim ölkədə əsrlərlə yanaşı yaşayan bütün etnik mənsubları əhatə edir. Bu mənada "Azərbaycan türk dövlətidir" deyəndə bütövlükdə cəmiyyətin mənəvi, siyasi, mədəni mənsubluğu nəzərdə tutulur və həmin anlamda da "titulluq" bütün toplumu əhatə edir.

Burada "azərbaycanlı" olmağı "türk olmamaq" kimi təqdim etməyə çalışmaq və "titul millət" anlayışını həmin mənada işlətmək yolverilməzdir. Eyni məntiqlə digər türk dövlətləri də əsl mənada türk dövlətləridirlər. Burada hansısa əlavə kriteriya axtarmaq və ya izah verməyə ehtiyac yoxdur. Eyni məntiqlə "ortaq türklük" etno-mədəni və ümummədəni aspektlərin sintezində anlaşılmalıdır.

## Ortaq bədii dil

Bu və buna bənzər sualların yaranması təbiidir. Çünki Əlifba yalnız rəmzlik çərçivəsində qalan bir hadisə deyildir. Əlifbanı ona görə tərtib edirlər ki, ünsiyyətin bütün səviyyə, forma və məzmununu ifadə etmək mümkün olsun, yazı mədəniyyətinin qaydalarına uyğun ünsiyyət qurulsun, yaddaşda nələrsə saxlansın və yazı kültürü cəmiyyətdə öz funksiyasını yerinə yetirsin.

Bir sözlə, əlifba müasir cəmiyyətin varoluşunun hərəkətverici faktorudur və onun kommunikativ məzmununu müəyyən edəndir. Bu səbəblərdən "ortaq əlifba cəmiyyətin yazı mədəniyyətinin hansı qatına qədər işlənə bilər?" məzmunu olmayan sualdır. Əgər söhbət əlifbadan gedirsə, deməli o, insanın fərdi və sosial həyatının bütün qatlarında özünü göstərməlidir. Bu anlamda ortaq türk dili, ortaq bədii dil, ortaq elmi dil və s. kimi anlayışlar ritorika deyildir. Qarşıya çıxa biləcək yeni gerçəkliklər üzərində düşünməyə dəvətdir. Əks halda ortaq əlifba formal və sözdə qalan bir hadisə olacaqdır.



Belə alınır ki, bütövlükdə ortaq əlifbanın fərdi koqnitiv (sırf idraki, məntiqi təfəkkür çərçivəsində reallaşan) gerçəkliklərı ilə onun sosial-mədəni, psixoloji, kommunikativ imkanlarının uyğunlaşması dinamik və zaman tələb edən prosesdir. Öncə, əlifba öyrədilməlidir, sonra digər proseslər avtomatik aktuallaşacaqdır. Məhz həmin mərhələdə dillə bağlı hansı məsələni necə həll etməyi üzərində predmet səviyyəsində çalışmaq imkanı yaranacaqdır.

## Türk dünyasının sivil qurucuları: yeni kadrlar strategiyası

Bu məqam məqalənin əsas hədəfidir. Həmin vəzifəni Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif aspektlərdə dəqiq ifadə etmişdir. Prezident İlham Əliyev TDT-nin güclənməsinin təməl şərtlərindən biri kimi yeni ruhda hazırlanacaq kadrları görür. Azərbaycan–Türkiyə Universiteti ilə bağlı dövlət başçısının ifadə etdiyi fikirlərdə bu özəllik açıq yer almışdır. Bizcə, çox müdrik və real nəticəverici tezisdir. Səbəbi məncə, aydındır.

Çünki əgər söhbət ciddi olaraq Türk Dövlətləri Təşkilatından və bütövlükdə Türk dünyasının birliyindən gedirsə, yeni kadrlara ehtiyac vardır. Əsrlərlə davam edən ayrılıqlar Türk xalqlarının şüurunda müəyyən stereotiplər formalaşdırmışdır. Bu məqalələrdə bizim müntəzəm olaraq ortaq türk şüuru mənasında ortaq dəyərlərin yaradılması zərurətinə işarəmiz məhz bu faktora əsaslanır.

Konkret desək: türklərin gerçəkçi sivil və mədəni birləşməsi üçün bu keyfiyyəti özündə daşıyan kadrlara ehtiyac vardır. Bunu reallaşdırmağın başıca yolu isə ortaq yazı mədəniyyəti, fundamental təhsil və yüksək səviyyədə kadrların hazırlanmasıdır. Son dərəcə məsuliyyətli və tarixi vəzifədir.

Bu baxımdan Azərbaycan–Türkiyə Universiteti türk birliyinin reallaşmasının "ilk mənəvi, mədəni qaranquşudur". Buradan indi bir sıra milli düşüncəli insanların təklif etdiyi ortaq Türk Universitetinə inamla keçid etmək olar! Niyə də məsələ məhz bu kontekstdə qoyulmasın? Heç bir inkaredici səbəb görmürük. Əksinə, yuxarıda vurğulanan faktorların prizmasında ortaq Universitet məsələsi vaz keçilməyən məsələyə çevrilir. Nümunə Qərbdir.

Orada məsələnin yüksək fəlsəfi-nəzəri səviyyədə təhlili artıq geniş vüsət alır. Dünyanın elmi cəhətdən ən çox inkişaf etmiş hissəsində problem Avropadakı ənənəvi universitet strategiyasını yeniləşdirməyə ehtiyacın yaranması kontekstində qoyulur. Rusiyalı filosoflar, epistemoloqlar və konkret təhsilin nəzəri məsələləri ilə məşğul olan mütəxəssislər də bu problemə ciddi diqqət yeirirlər. Bizcə, Ortaq Türk Universitetinin ideya və praktiki layihə kimi perspektivi yeni universitet strategiyası yaratmağa çalışan dünyanın aparıcı elm və təhsil mərkəzlərinin arqumentləri işığında aydın görünür.

## Ənənəvi universitet strategiyası nədir?

Qısa və fəlsəfi mücərrədlikdən (çətin qavranılan fəlsəfi ifadəçilik – abstraktlıq) kənar izah etməyə çalışaq. Avropada universitet formasında tədris və təhsil Orta Əsrlərdə formalaşmışdır. Bunun üçün o dövrün öz şərtləri və elmi özəlliyi mütləq nəzərə alınmalı idı. Onun isə başlıca əlaməti nədən ibarət idi? Orta əsrlərdə hakim olmuş dini elm və təhsil şüurunu dəyişmək! "İntibah" adlandırılan tarixi mərhələ məhz ortodoksal (kilsənin tam hökmranlığını nəzərdə tutan və dini çərçivəni fundamental surətdə gözləməyi tələb edən yanaşma) mövqedən sekulyar (dünyəvi, sivil) mövqeyə keçidi təmin etmək prosesinin rəmzi ifadəsidir.

Bunun yolunu isə o dövrün filosof və alimləri elmi biliyi yaymaq, tədris etmək, təşviq etmək, bir sözlə maarifləndirməkdə görürdülər. İnanırdılar ki, dini deyil, təbiətşünaslığın elmi nəticələrinə əsaslanan təhsil sivil kadrlar yetişdirəcək və dünya təfəkkürü dini şüurun və ehkamçılıqdan xilas olacaq. Bu prosesi sırf müsbət hadisə və inkişaf kimi qiymətləndirirdilər. Lakin burada üç fundamental problem qarşıya çıxırdı.

**Birincisi,** yeni təhsil sisteminin təşkili. **İkincisi,** təhsilin strategiyasının hazırlanması. **Üçüncüsü,** kadrların praktiki fəaliyyətinin təşkili. Bu üç faktor daha fundamental və ümumi xarakterli başqa bir dəyərə söykənməli idi. Həmin məqam dövrün filosoflarının universitet strategiyasının məzmununu, məqsədini, məramını və konseptual aparatın hazırlamağı tələb edirdi.

Məsələ peşəkarlıq baxımından dərin idi. Cavab tapılmalı idi: hansı fəlsəfi məktəbi əsas götürməli? Sokrat, Platon yaxud Aristotel? Bəlkə stoisizm? Və yaxud Demokrit, Epikür? Pifaqor və ya Heraklit ola bilərmi? Bəlkə bunların heç biri deyil, əsrlərin ənginliklərində "gizlənmiş" başqa fikir sahibi?

Təcrübə bu kimi suallara axtarışların həm fundamental əhəmiyyətini, həm də o dövrdə verilən cavabların qüsurlarını göstərdi. Bu məqamı indi XXI əsrin inkişaf zirvəsindən daha aydın görə bilirlər. Xüsusilə, Pol Feyerabendin XX əsrin 70-80-ci illərində Qərbin insan anlayışının fəlsəfi dərkini və bunun fonunda ənənəvi universitet strategiyasının kəskin tənqidi təsirli hadisə idi. P.Feyerabendin cavabı belədir: Qərbin orta əsrlərdə meydana gəlmiş təhsil strategiyası yararsızdır, yanlışdır və buna uyğun olaraq universitet strategiyası zərərlidir! Həmin strategiya yenidən işlənməlidir! Onun başlıca nöqsanı ənənəvi universitet strategiyasının həqiqi mənada təhsil və universitet strategiyası olmamasındadır! Bəs onda hansı mənada ənənəvi universitet strategiyasından danışmaq olar?

Maraqlı və düşündürücüdür, deyilmi? Əsrlərlə dünyaya bunun əksini təşviq edirdilər. Qərb universitetlərinin uğuru, səmərəsi, dünyəviliyi və nəticəvericiliyi nümunə olaraq göstərilirdi və indi də bu tendensiya davam edir. Qərbli Pol Feyerabend və digərləri isə ortaya bu prosesin düzəldilməli olan qüsurun atırlar! Nə nəzərdə tutulur və bu sualın cavabının aydınlaşdırılması ortaq əlifba – ortaq universitet keçidi üçün faydalıdırmı?

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***